

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 48 (23.210)

*8 mart 2019-cu il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*



Martın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva zəlzələnin fəsadlarının aradan qaldırılması ilə bağlı görülən işlərlə tanışlıq məqsədilə Şamaxıda səfərdə olublar.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva əvvəlcə şəhərin Salman Mümtaz küçəsində Rasim Həsənova məxsus yeni inşa olunmuş evə gəliblər. Prezident İlham Əliyev və birinci xanım evdə yaradılan şəraitlə tanış olublar.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Salman Mümtaz küçəsinin sakinləri ilə söhbət ediblər, onları narahat edən məsələləri dinləyiblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 7 mart 2019-cu il tarixli Sərəncamı ilə polkovnik Niftaliyev Səlim Cəfər oğluna general-mayor ali hərbi rütbəsi verilmişdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 7 mart 2019-cu il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaradılmasının 27-ci ildönümü ilə əlaqədar olaraq, dövlətin ərazi bütövlüyünün təmin olunmasında iştirak etdiklərinə, döyüş zamanı igidlik göstərdiklərinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə bir qrup hərbi qulluqçu təltif edilmişdir. Təltif olunanlar arasında Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının hərbi qulluqçusu da vardır.

**Seyidov Orxan Mir Qafar oğlu – kapitan**

"Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişdir.

## S.N. Seyidin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Surə Namidar qızı Seyid Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 7 mart 2019-cu il*

## Kəngərli rayonunun yaranmasının 15-ci ildönümü qeyd olunmuşdur

### *Qıvraq qəsəbəsində yeni yaşayış binası istifadəyə verilmişdir*

Muxtar respublikanın davamlı sosial-iqtisadi inkişafı dinamik əhali artımı ilə müşahidə olunur. Bu da məskunlaşmanın artmasına və yeni yaşayış məntəqələrinin yaranmasına səbəb olmuşdur. 15 il bundan əvvəl yaradılan Kəngərli rayonu da ötən dövrdə böyük inkişaf yolu keçmişdir. Rayon mərkəzi Qıvraq qəsəbəsində geniş quruculuq işləri aparılmış, yeni sosial obyektlər, inzibati və yaşayış binaları tikilərək istifadəyə verilmişdir.

Martın 7-də Kəngərli rayonunun yaranmasının 15-ci ildönümü qeyd olunmuş, Qıvraq qəsəbəsində yeni yaşayış binasının açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.



Naxçıvan Muxtar Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Hicran Rüstəmov muxtar respublikada əhalinin məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində aparılan işlərin tərkib hissəsi olaraq Qıvraq qəsəbəsində yeni yaşayış binasının inşa olunduğunu bildirmiş, tikinti işlərinin yüksək keyfiyyətlə başa çatdırıldığını qeyd etmişdir. Bina haqqında ətraflı məlumat verən Hicran Rüstəmov göstərilən qayğıya görə inşaatçılar adından minnətdarlıq etmiş, bundan sonra da tapşırıqların icrası üçün səylə çalışacaqlarını bildirmişdir.





Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov çıxış edərək demişdir ki, Kəngərli rayonu sürətli inkişaf və yüksəliş yolu keçərək müasir mərhələyə gəlib çatmışdır. Bir vaxt boş çöllərdən ibarət olan bu ərazilər indi şəhər görkəminə qovuşub. Ötən dövrdə Kəngərli rayonunun bütün kəndləri və Qıvraq qəsəbəsi kompleks abadlaşmış, inzibati binalar tikilmiş, 79,9 kilometr yeni yol salınmış, 6 körpü, 2 meqavatlıq Günəş Elektrik Stansiyası qurulmuş, tarixi abidələrimizə, eləcə də dünya əhəmiyyətli memarlıq nümunəsi olan Qarabağlar Türbə Kompleksinə ikinci həyat verilmişdir. Kəngərli rayonu yaranandan bu günədək tikinti-quruculuq işləri rayon mərkəzi ilə yanaşı, kəndləri də əhatə etmiş, 5382 şagird yerlik 12 məktəb, 224 yerlik uşaq bağçası tikilmiş, Mədəniyyət Sarayı, 2 muzey, Şahmat məktəbi, 11 tibb müəssisəsi, 2 uşaq musiqi məktəbi, 10 kənd və 10 xidmət mərkəzi istifadəyə verilmişdir. Rayon ərazisində 5 su nasos stansiyasının, eləcə də 1140 hektar ərazini əhatə edən qapalı suvarma şəbəkəsinin qurulması, Böyükdüz kəndində toxumçuluq təsərrüfatının yaradılması yüzlərlə hektar əkilməyən torpaq sahəsinin əkin dövriyyəsinə qatılmasına səbəb olmuşdur. Son illərin quruculuq ünvanları olan müasir sənaye kompleksi və sement zavodu isə ölkəmizin mühüm sənaye obyektləri sırasındadır. Həm sənaye müəssisələrində, həm də son illər Kəngərli rayonunda qurulan onlarla kiçik istehsal və xidmət sahələrində yüzlərlə iş yeri açılmışdır. Qıvraq qəsəbəsində tikilən 7 mərtəbədən ibarət yaşayış binası da insan amilinə, əhalinin firavan yaşamasına verilən dəyərin ifadəsidir. Müasir Kəngərli Azərbaycan dövlətinin bir rayonun timsalında iqtisadi gücünün və sosial dayanıqlığının, insan amilinə hərtərəfli qayğısının göstəricisidir. İcra başçısı göstərilən qayğıya görə rayon sakinləri adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Kəngərli rayonunun yaranmasından 15 il ötür. Azərbaycan Respublikası Prezidentinin imzaladığı Azərbaycan Respublikasının 2004-cü il 19 mart tarixli Qanununa əsasən yaradılmış rayon ötən 15 il ərzində böyük inkişaf yolu keçmişdir.

Ali Məclisin Sədri Kəngərli rayonunun yaranmasının 15-ci ildönümü münasibətilə sakinləri təbrik etmiş, rayonun inkişafında əməyi olanlara təşəkkürünü bildirərək demişdir: Ötən 15 ildə Kəngərli rayonunun əsas inkişaf göstəricilərindən biri əhalisinin sayının 7 min nəfərə yaxın artaraq 32 minə çatması olmuşdur. Bundan başqa, rayonda sənaye məhsulu 16 dəfə, kənd təsərrüfatı məhsulu 7 dəfə, investisiya qoyuluşu 50 dəfə, rabitə xidmətlərinin həcmi 7 dəfə, əkin sahəsi isə 54 faiz artmışdır. Bütün bunlar rayonun inkişafının göstəriciləridir. Ötən dövrdə rayonun ictimai-siyasi həyatında böyük dəyişikliklər baş vermiş, geniş quruculuq işləri görülmüş, müasir rayon formalaşmışdır. Aparılan abadlıq-quruculuq işlərinin davamı olaraq bu gün rayonda su-kanalizasiya sistemləri qurulur, meliorasiya tədbirləri həyata keçirilir, tarixi abidələr bərpa olunur, məktəblər tikilir, yollar çəkilir, rayon ərazisindəki hərbi hissələr müasir xidmət və yaşayış şəraiti ilə təmin olunur. Görülən bu işlər rayonun inkişafını daha da sürətləndirəcək, Kəngərli Azərbaycanın qabaqcıl rayonları sırasında öz yerini tutacaqdır.

*Ardı 2-ci səhifədə*





Ali Məclisin Sədri demişdir: Rayonun yaradılması və inkişaf etdirilməsi üçün uzun illər tələb olunur. Lakin yaranmasından qısa müddət keçməsinə baxmayaraq, Kəngərli rayonu tam formalaşmış və inkişaf etmişdir. Rayonun yaranmasının 15-ci ildönümündə 48 mənzilli yeni yaşayış binasının istifadəyə verilməsi mühüm nailiyyətdir və rayonun yubileyinə layiqli töhfədir. Binanın ilk sakinləri Azərbaycan dövlətinin suverenliyi və ərazi bütövlüyünün qorunmasında xidməti vəzifələrini layiqincə yerinə yetirmiş və sağlamlığını itirmiş şəxslərdir. Bu da mühüm əhəmiyyət daşıyır. Çünki dövlət qayğısı ilə tikilmiş binanın ilk sakinləri dövlət qarşısında xidməti borclarını ləyaqətlə yerinə yetirmiş insanlardır.



Ali Məclisin Sədri mənzillə təmin olunan sakinləri təbrik edərək demişdir: Bu gün Kəngərli rayonunun ictimai-siyasi həyatında fərqlənənlərin əməyi də dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Ötən dövrdə rayonun formalaşmasında və inkişafında xidməti olanların əməkləri yüksək qiymətləndirilmiş, onlar orden, medal və fəxri adlarla təltif olunmuşlar. Rayonun formalaşmasında hər bir sakininin əməyi vardır. Dövlət qayğısı və birgə fəaliyyət rayonun inkişafını təmin edib.

Ali Məclisin Sədri rayonun inkişafında əməyi olan bütün sakinlərə təşəkkür etmiş, qarşıdan gələn Novruz bayramı münasibətilə təbriklərini çatdırmış və əminliyini bildirmişdir ki, Kəngərli rayonu bundan sonrakı yubileylərini də yüksək inkişaf göstəriciləri ilə qeyd edəcəkdir.

Məlumat verilmişdir ki, zirzəmi ilə birlikdə 7 mərtəbədən ibarət olan binada 48 mənzil vardır. Mənzillərdən 24-ü üçotaqlı, 24-ü isə ikiotaqlıdır. Üçotaqlı mənzillərin ümumi sahəsi 93 və 78, ikiotaqlı mənzillərin ümumi sahəsi 59 və 62 kvadratmetrdir. Mənzillər müasir kommunal şəraitlə təmin olunmuş, hər birinə daimi su xətti çəkilərək zirzəmidə 2 ədəd 8 tonluq su çənləri qoyulmuş, mərkəzləşdirilmiş antena sistemi və 2 lift quraşdırılmışdır.

Binanın həyətində abadlıq işləri aparılmış, istirahət guşəsi yaradılmış, 1500 metr uzunluğunda yeni avtomobil yolu salınmış, 1510 metr su xətti çəkilmiş, 250 kilovoltluq transformator yarımstansiyası, müasir işıqlandırma və suvarma sistemləri qurulmuşdur.

Zirzəmidə mühəndis-texniki tələblərə uyğun inşa olunmuş mülki müdafiə və səfərbərlik ehtiyatı anbarı yerləşir. Həmçinin burada xidmət mərkəzi də fəaliyyət göstərir. Mərkəzdə bərbərxana, qadın gözəllik salonu, dərzi, ərzaq və təsərrüfat malları mağazaları, çəkməçi dükanları vardır. Burada 6 sakin işlə təmin olunmuşdur.

## Sosial qayğıya ehtiyacı olanlara mənzillər və Kəngərli rayon dini icmasına xidməti avtomobil təqdim edilib





Martın 7-də Qıvraq qəsəbəsindəki yeni yaşayış binasında hərbi xidmət vəzifəsini yerinə yetirərkən sağlamlığını itirmiş bir nəfərə üçotaqlı, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün müdafiəsi zamanı əlil olmuş şəxsə isə ikiotaqlı mənzil təqdim olunmuş, Kəngərli rayon dini icmasına xidməti avtomobil verilmişdir.

Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev çıxış edərək demişdir ki, muxtar respublikada xüsusi qayğıya ehtiyacı olanların reabilitasiyası, onlara sosial xidmətlərin göstərilməsi, təhsili, məşğulluğu və yaradıcı potensiallarının aşkar edilməsi daim diqqət mərkəzindədir. Bununla yanaşı, sağlamlıq imkanları məhdud Azərbaycan Vətən Müharibəsi iştirakçıları və şəhid ailələrinin mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması, minik avtomobillərinin verilməsi, onların tibbi və sosial bərpası istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. Bu günədək şəhid ailələrinə və müvafiq kateqoriyadan olan şəxslərə 217 mənzil və fərdi yaşayış evləri, 462 nəfərə isə minik avtomobilləri təqdim edilmişdir. Bu gün sağlamlıq imkanı məhdud Azərbaycan Vətən Müharibəsi iştirakçısına və xidməti vəzifəsinin icrası zamanı sağlamlıq imkanları məhdudlaşmış bir nəfərə mənzillərin verilməsi də bu sahədə görülən işlərin davamıdır. Nicat Babayev göstərilən diqqət və qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlığını bildirmişdir.

Kəngərli rayon dini icmasının rəhbəri Mirtofiq Seyidov minnətdarlıq edərək demişdir ki, muxtar respublikanın bütün yaşayış məntəqələrində geniş quruculuq işləri aparılır. Sosial obyektlər, inzibati binalar tikilir, yollar çəkilir, tarixi abidələrimiz bərpa olunur. Kəngərli rayonundakı Qarabağlar Türbə Kompleksinin öz tarixi görkəminə qaytarılması tarixi-mədəni irsimizə göstərilən qayğının daha bir ifadəsidir. Muxtar respublikada dini dəyərlərimizin qorunub yaşadılması sahəsində də ardıcıl tədbirlər görülür, yeni məscidlər tikilir. Kəngərli rayonunda da din xadimlərinə hərtərəfli qayğı göstərilir, məscidlər bərpa olunur. İslam dininin olduğu kimi təbliğ olunması, dini ayinlərin düzgün icrası və mənəvi dəyərlərimizin yaşadılması qarşımızda duran əsas vəzifədir. Bu vəzifələrin öhdəsindən layiqincə gələcək, göstərilən qayğı müqabilində daha səylə işləyəcəyik. Mirtofiq Seyidov Ali Məclisin Sədrini qarşıdan gələn Novruz bayramı münasibətilə muxtar respublika dindarları adından təbrik etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov sağlamlıq imkanı məhdud Azərbaycan Vətən Müharibəsi iştirakçısına və xidməti vəzifəsinin icrası zamanı sağlamlıq imkanları məhdudlaşmış şəxsə mənzillərin orderlərini təqdim etmiş, onlara firavan həyat arzulamışdır. Həmçinin Ali Məclisin Sədri Kəngərli rayon dini icmasına "Naz Lifan-330" markalı minik avtomobilinin açarını təqdim etmişdir.

Müasir şəraiti olan mənzillərdə lazımi kommunal-məişət şəraiti yaradılmışdır. Yeni mənzillə təmin olunanlara xalça hədiyyə olunmuşdur.

Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün müdafiəsi zamanı sağlamlığını itirmiş Mirməhəmməd Seyidov və onun ailə üzvü Mahirə Seyidova, eləcə də Azərbaycan Vətən Müharibəsi iştirakçısının ailə üzvü Zümrüd Allahverdiyeva göstərilən qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişlər.

## Dövlət Sığorta Agentliyinə səyyar xidmət avtomobilləri verilmiş, Kəngərli Rayon Dövlət Sığorta Agentliyi üçün müasir iş şəraiti yaradılmışdır

Martın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Kəngərli Rayon Dövlət Sığorta Agentliyinin yeni binasında yaradılan şəraitlə tanış olmuş, Dövlət Sığorta Agentliyinə 2 ədəd səyyar xidmət avtomobili təqdim edilmişdir.

Bildirilmişdir ki, Kəngərli Rayon Dövlət Sığorta Agentliyi üçün 7 iş otağı ayrılmış, otaqlarda müasir iş şəraiti yaradılmışdır. Agentliyin otaqları üçün fərdi istilik sistemi qurulmuş, mebel dəstləri, kompüter və lazımi inventarlar qoyulmuşdur. Səyyar xidmət avtomobilləri internet, kompüter, printer və digər avadanlıqlarla təmin edilmişdir. Bu da muxtar respublikanın kəndlərində sığorta ərizələrinin qəbulunun və müqavilələrin bağlanmasının həyata keçirilməsinə imkan verəcəkdir.

Ali Məclisin Sədri kollektivi təbrik edərək demişdir: Ölkəmizdə ASAN xidmətin tətbiqi əhalinin rahatlığına xidmət edir. Artıq ASAN xidmət dünyada nümunəvi model kimi qəbul olunur. Muxtar respublikada əhaliyə göstərilən səyyar xidmət də ASAN xidmətin bir formasıdır. Artıq muxtar respublikada Daxili İşlər Nazirliyində, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsində səyyar xidmətlər fəaliyyət göstərir. Həmçinin əhaliyə internet üzərindən onlayn xidmətlər göstərilir. Bütün bunlar isə imkan verir ki, əhali vaxt itkisinə yol verməsin. Muxtar respublikada

*Ardı 3-cü səhifədə*





sığorta sahəsində də səyyar xidmətin yaradılmasına ehtiyac vardı. Naxçıvan Muxtar Respublikası Dövlət Sığorta Agentliyi 4 icbari və 7 könüllü sığorta fəaliyyətini həyata keçirir. Bu gün Dövlət Sığorta Agentliyinə yeni səyyar xidmət avtomobillərinin təqdim olunması və Kəngərli Rayon Dövlət Sığorta Agentliyi üçün müasir iş şəraitinin yaradılması bu sahədə fəaliyyətin hərtərəfli təşkilinə imkan verəcəkdir.

Ali Məclisin Sədri demişdir: Sığorta işinin əsasında könüllü sığortanın tətbiqi dayanır. Könüllü sığorta isə insanları maarifləndirmə yolu ilə həyata keçirilir. Fəaliyyətin bu istiqamətdə qurulması sığorta təşkilatlarının qarşısında duran əsas vəzifələrdəndir. Sığorta işçiləri və bu sahədə çalışanlar muxtar respublikada sığorta işinin qurulmasında, könüllü sığortanın inkişaf etdirilməsində öz səylərini daha da artırmalı, müasir sığorta sistemi formalaşdırılmalıdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov muxtar respublikada sığorta işinin təşkili sahəsində ardıcıl tədbirlərin görüldüyünü bildirmiş, yaradılan şəraitə görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.





## Kəngərli rayon sakinləri dövlət qayğısına görə minnətdarlıq edirlər

Rayon sakini, ziyalı Əbülfəz Orucov minnətdarlıq edərək demişdir: Bu gün biz sabitlik və əmin-amanlıq şəraitində yaşayırıq. Bütün bunlar ulu öndər Heydər Əliyevin yolunun uğurla davam etdirilməsinin nəticəsidir. Rahat yaşayışımıza görə dövlətimizə minnətdarıq. Kəngərli rayonunda bütün sahələr inkişaf edir. Təhsil işçiləri də qayğı ilə əhatə olunub. Sakinlər bundan sonra da ulu öndərimizin yoluna sadiq qalacaq, rayonun inkişafına öz töhfələrini verəcək, abadlıq-quruculuq işlərində yaxından iştirak edəcəklər.

Ali Məclisin Sədri demişdir ki, 15 il bundan əvvəl yaradılan Kəngərli rayonu hazırda muxtar respublikanın inkişaf etmiş rayonları sırasındadır. Bu gün rayonun ən ucqar kəndləri telefonlaşdırılıb, sürətli internet şəbəkəsi qurulub, ən müasir məktəblər, kitabxanalar tikilərək istifadəyə verilib. Bunların hamısı Kəngərli rayonunun 15 ildə qazandığı uğurlardır.

Ali Məclisin Sədri sakinləri qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik etmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Şərur şəhər avtomobil yolları yenidən qurulacaq, Mədəniyyət Sarayı üçün yeni bina və müasir yaşayış kompleksi inşa olunacaqdır





Muxtar respublikada aparılan quruculuq işləri Şərur şəhərini müasir görkəmə qovuşdurmuşdur. Şəhərdə yeni inzibati binaların, sosial obyektlərin eləcə də yaşayış binalarının istifadəyə verilməsi, müasir içməli su sistemlərinin və kanalizasiya sistemlərinin qurulması əhalinin rahat yaşayışına xidmət edir. Quruculuq tədbirləri 2019-cu ildə də davam etdiriləcək. Şərur şəhərinin avtomobil yolları yenidən qurulacaq, rayon Mədəniyyət Sarayı üçün yeni bina və müasir yaşayış kompleksi inşa olunacaqdır.

Martın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şərur şəhər avtomobil yollarının yenidən qurulması, Mədəniyyət Sarayının və yaşayış kompleksinin layihələrinə baxmışdır.

Məlumat verilmişdir ki, Naxçıvan-Sədərək magistralından Şərur şəhərinə qədər olan, eləcə də şəhərdaxili avtomobil yolu yenidən qurulacaqdır. Hazırda tikinti işlərinə başlanılıb, 11 kilometrlik yolun yatağı genişləndirilir, torpaq işləri görülür. Şəhərin Heydər Əliyev prospekti və əlavə 6 küçəsində tikinti işləri aparılarkən mühəndis-texniki tələblərə, avtomobillərin və piyadaların şəhər daxilində rahat hərəkətinin təmin olunmasına diqqət yetirilir. Yola keyfiyyətli asfalt örtük veriləcək, müasir işıqlandırma sistemləri qurulacaqdır.

Yeni inşa olunacaq Şərur Rayon Mədəniyyət Sarayında zal və iş otaqları yaradılacaq, saray işçilərinin, Şərur Xalq Yallı Ansamblının və digər mədəniyyət kollektivlərinin fəaliyyəti təmin olunacaqdır. Yaşayış kompleksi isə hər biri altı mərtəbəli olmaqla, üç binadan ibarət olacaqdır. Binaların hər birində 40 mənzil olacaqdır.

Ali Məclisin Sədri avtomobil yolunun yenidən qurulması və tikinti işlərinin keyfiyyətlə aparılması barədə müvafiq tapşırıqlar vermişdir.

*Ardı 4-cü səhifədə*



## Zeyvə və Düdəngə kəndlərində içməli su sistemləri qurulacaqdır

Muxtar respublikanın kəndlərində aparılan kompleks abadlıq-quruculuq işləri çərçivəsində əhalinin içməli suya olan tələbatının ödənilməsinə xüsusi diqqət yetirilir. Kəndlərdə yeni sosial obyektlərin istifadəyə verilməsi ilə yanaşı, həm də müasir içməli su sistemləri qurulur, sakinlər 24 saat davamlı və keyfiyyətli su ilə təmin olunurlar. Bu sahədə görülən tədbirlərin tərkib hissəsi olaraq Şərur rayonunun Zeyvə və Düdəngə kəndlərində də yeni içməli su sistemləri qurulacaq, rayonda sutəmizləyici qurğular kompleksi inşa olunacaqdır.

Martın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şərur rayonuna gəlmiş, Zeyvə və Düdəngə kəndlərində həyata keçiriləcək içməli su təchizatı sisteminin layihəsinə baxmışdır.



Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri Əsgər Əsgərov məlumat vermişdir ki, su Şərur şəhərinə gələn ana xətdən götürülərək paylayıcı şəbəkəyə veriləcəkdir. Layihəyə uyğun olaraq ərazidə diametri 63 millimetrdən 355 millimetrə qədər olan plastik borularla 46 kilometr içməli su xətti çəkiləcəkdir. Həmçinin 1021 ev su şəbəkəsinə qoşularaq sayğac quraşdırılacaqdır. Su şəbəkəsi üzərində 10 yanğın hidrantı tikiləcəkdir. Qəza zamanı məhəllə xətlərinin bağlanması üçün müxtəlif diametrli 142 siyirtmə, 6 suboşaldıcı quraşdırılacaqdır.

Zeyvə və Düdəngə kəndlərinin 6700 sakini fasiləsiz olaraq Beynəlxalq Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli su ilə təmin olunacaqdır.

Şərur sutəmizləyici qurğular kompleksində su ozonla dezinfeksiya olunaraq sutəmizləyici qurğuda təmizlənəcək və su anbarlarına yığılacaqdır. Sutəmizləyici qurğu əhalini və sənaye sahələrini gün ərzində 24 saat ekoloji cəhətdən təmiz su ilə təchiz edəcəkdir. Qurğu gün ərzində 18 min 200 kubmetr sutəmizləmə gücünə malik olacaqdır. Qurğuda hər birinin sutəmizləmə gücü saniyədə 42 litr olan 5 dəst avadanlıq quraşdırılacaqdır. Gələcəkdə suya ehtiyac artarsa, bu zaman qurğuda əlavə olaraq iki dəst avadanlıq quraşdırmaq üçün ehtiyat yer nəzərdə tutulmuşdur. Hazırda hər birinin tutumu 10 min kubmetr olan iki ədəd və tutumu 7500 kubmetr olan bir ədəd su anbarı tikilmişdir.

Rayonda su anbarlarının səviyyəsi, giriş və çıxış siyirtmələrinin açılıb-bağlanması, suyun sərfinə, təzyiqinə, elektrik keçiriciliyinə və bulanıqlığına idarəetmə otağında quraşdırılmış kompüterlə nəzarət olunacaq və iş prosesi avtomatik idarə ediləcəkdir.

Ali Məclisin Sədri layihə üzrə tikinti işlərinin keyfiyyətlə aparılması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Azərbaycan Respublikası təltiflərinin təqdimatı olub





Martın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan Respublikası təltiflərinin təqdimatı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov təltif olunan qadınları, eyni zamanda onların timsalında bütün muxtar respublika qadınlarını 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edərək demişdir: Qadınlar cəmiyyətin əsas aparıcı qüvvəsidir. Çünki qadın əməyi olmadan cəmiyyətin inkişafı mümkün deyil. Muxtar respublika əhalisinin 52 faizə yaxını qadınlardır. Hazırda muxtar respublika qadınları dövlət quruculuğunda, təhsil, səhiyyə, mədəniyyət və sahibkarlıq sahələrində, hüquq-mühafizə orqanlarında, eləcə də ailə dəyərlərinin qorunmasında uğurla fəaliyyət göstərirlər. Sevindirici haldır ki, ali məktəblərə qəbul olan gənclərin 60 faizdən çoxunu qızlar, təlim-tərbiyə sahəsində çalışanların isə 70 faizdən çoxunu qadınlar təşkil edir.

Ali Məclisin Sədri müdriklərin qadınlarla bağlı "Qadınlarla kişiləri eyni səviyyəyə qoysaq, onda qadınların nəyə qadir olduğunu görərik", "Cəmiyyətimizi ağıllı və təhsilli görmək istəyiriksə, o zaman qadınlarımıza təhsil verməliyik" fikirlərini xatırladaraq



demişdir: Gələcəyini düşünən hər bir ölkə qadına yüksək dəyər verir. Bu gün Azərbaycan qadınları da cəmiyyətin bütün sahələrində uğurla çalışır, təhsili, dünyagörüşü və mədəni səviyyəsi ilə seçilir, eləcə də ölkəmizi beynəlxalq aləmdə layiqincə təmsil edirlər. Eyni zamanda bu gün qadınlarımız ailənin aparıcı qüvvəsidir. Çünki ölkəmizin gələcəyi vətənpərvər və təhsilli gənclərdən asılıdır. Vətənpərvər, təhsilli və dünyagörüşlü gənclərin yetişməsində isə anaların böyük əməyi vardır.

Ali Məclisin Sədri demişdir: 8 Mart Beynəlxalq Qadınlar Gününün bütün dünyada qeyd olunması qadınlara verilən dəyərin daha bir ifadəsidir. Xalqımız tarixən qadın adına yüksək dəyər verib. Ölkəmizdəki tarixi abidələr, xüsusilə Naxçıvan şəhərindəki Möminə xatın və Qarabağlar kəndindəki Quti xatın türbələri qadın adına ucaldılmış ən möhtəşəm abidələrdəndir. Müqəddəs kitabımız olan "Qurani-Kərim"də də qadın haqqı ən yüksək dəyər kimi götürülür.

Ali Məclisin Sədri qadınları bir daha təbrik etmiş, onlara fəaliyyətlərində uğurlar arzulamışdır.

Sonra Ali Məclisin Sədri "Dövlət qulluğunda fərqlənməyə görə", 1-ci dərəcəli "Vergi orqanlarında xidmətdə fərqlənməyə görə" və "Tərəqqi" medallarının, Azərbaycan Respublikasının "Əməkdar müəllimi" fəxri adının döş nişanlarını və vəsiqələrini, eləcə də hədiyyələri təqdim etmişdir.

Təltif olunanlardan Minayə Nəsirova, Mehrəngiz Əkbərova, Fizzə Məmmədova və Məlahət Rüstəmova minnətdarlıq edərək demişlər ki, çalışdıqları sahələrdə qadınların fəaliyyəti üçün hər cür şərait yaradılıb. Bu da imkan verir ki, qadınlar daha səmərəli fəaliyyət göstərsinlər. Qadınların əməyinin qiymətləndirilməsi onları daha da ruhlandırır, daha səylə çalışmağa sövq edir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə tədbir keçirilmişdir

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Naxçıvan Muxtar Respublikasının yaranmasının 95 illiyi ilə əlaqədar 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə tədbir keçirilmişdir.

Əvvəlcə istedadlı qadınların rəsm və əl işlərindən, eləcə də qadınlar tərəfindən nəşr edilən kitablardan və ailə təsərrüfatı ilə məşğul olan qadınların istehsal etdiyi məhsullardan ibarət "Naxçıvan qadınları – 95" adlı sərgiyə baxış olmuşdur.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova tədbir iştirakçılarını və muxtar respublika qadınlarını Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun adından təbrik etmişdir. Muxtar respublika qadınlarının müxtəlif sahələrdəki uğurlarından danışan Ramilə Seyidova çıxışının sonunda yaradılan şəraitə və göstərilən hərtərəfli qayğıya görə muxtar respublika qadınları adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirmişdir.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov qadınları təbrik etmişdir.

Sonra kimya üzrə fəlsəfə doktoru Fizzə Məmmədova və ailə təsərrüfatçısı Sürəyya Quliyeva da çıxış etmişlər. Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə keçirilən tədbirdə fərqlənən qadınlara diplomlar təqdim olunmuş, tədbir iştirakçılarına hədiyyələr verilmişdir. Tədbir konsert proqramı ilə başa çatmışdır.

Həmin gün analoji tədbirlər muxtar respublikanın rayonlarında da keçirilmişdir.

**Xəbərlər şöbəsi**


ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 191